DÖVLƏT
VERGİ
XİDMƏTİ

# Bazar mülkiyyətçiləri və bazarlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri bunları bilməlidirlər!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.10.2025-ci il tarixdən etibarən**

kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, **bazar mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) və bazarda fəaliyyət göstərən sahibkarlıq subyektləri** aşağıdakı vəzifələri yerinə yetirməlidirlər və yerinə yetirməyəcəkləri halda aşağıdakı maliyyə sanksiyalarına məruz qalacaqlar:

- bazar mülkiyyətçiləri (idarəediciləri) tərəfindən əmlak icarəyə verildiyi zaman əmlakı icarəyə götürənin təsərrüfat subyektinin (obyektinin) yalnız **vergi orqanında uçota alınması həyata keçirildikdən sonra** onun həmin bazarda fəaliyyət göstərməsinə şərait yaradılmalıdır.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

BAKI — 2025

**Təqvim ili ərzində belə hal birinci dəfə aşkar edildikdə 2000 manat, ikinci dəfə aşkar edildikdə 4000 manat, üç və daha çox dəfə aşkar edildikdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.**

**Qeyd:** Bazar mülkiyyətçiləri (idarəediciləri) **01.04.2026-cı il tarixədək** vergi orqanında uçota alınmamış təsərrüfat subyektlərinin (obyektlərinin) uçota alınmasını və həmin təsərrüfat subyektlərini (obyektlərini) icarəyə götürənlərin təsərrüfat subyektinin (obyektinin) **vergi orqanında uçota alınmasını təmin etməlidirlər.**

❖ bazarlarda daşınmaz əmlak həmin əmlakın mülkiyyətçiləri tərəfindən, habelə əmlak icarəyə verildiyi zaman icarəyə götürən tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edildiyi halda təsərrüfat subyektinin (obyektinin) girişində vergi ödəyicisinin adı və VÖEN-i əks etdirilməklə həmin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınması ilə bağlı məlumat (arayış) yerləşdirilməlidir.

❗ **Bu hal aşkar edildikdə mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya təşkilatlarına və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 40 manat məbləğində, digər şəxslərə münasibətdə 400 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.**

❖ bazarların mülkiyyətçiləri (idarəediciləri) tərəfindən icarə müqaviləsinə xitam verilmiş və faktiki olaraq həmin obyektdə fəaliyyət göstərməyən, habelə fəaliyyətini davam etdirən vergi ödəyiciləri barədə məlumat hər rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dək** uçotda olduqları vergi orqanına təqdim edilməlidir.

❗ **Bu məlumatın vergi orqanına müəyyən edilmiş müddətdə təqdim edilməməsinə və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsinə görə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.**